# 2018-ci ilin yanvar-aprel aylarında Naxçıvan Muxtar Respublikasının sosial-iqtisadi inkişafı

Muxtar respublikada 2018-ci ilin yanvar-aprel aylarında 711 milyon 398 min 700 manatlıq ümumi daxili məhsul istehsal olunmuşdur ki, bu da 2017-ci ilin müvafiq dövrü ilə müqayisədə 1,2 faiz çoxdur.

Hər bir nəfərə düşən ümumi daxili məhsulun həcmi 2017-ci ilin müvafiq dövrü ilə müqayisədə 2,7 faiz artaraq 1570 manata çatmışdır.

***

Muxtar respublikada yaranan ümumi daxili məhsulun tərkibində ilk yeri sənaye sahəsi tutur. Sənaye üzrə 322 milyon 695 min manat dəyərində məhsul istehsal edilmişdir ki, bu da 2017-ci ilin müvafiq dövrü ilə müqayisədə 1,3 faiz çoxdur.

***

Vəsait qoyuluşları çərçivəsində 2018-ci ilin yanvar-aprel aylarında muxtar respublikada bütün maliyyə mənbələrindən əsas kapitala 286 milyon 580 min manat vəsait yönəldilmişdir ki, bu da bir il öncəki göstəricidən 2,5 faiz çoxdur. Əsas kapitala yönəldilmiş vəsaitin 269 milyon 855 min manatı və ya 94,2 faizi tikinti-quraşdırma işlərinin payına düşmüşdür.

***

2018-ci ilin yanvar-aprel aylarında 38 milyon 757 min 900 manatlıq kənd təsərrüfatı məhsulları istehsal olunmuşdur ki, bu da 2017-ci ilin müvafiq dövrü ilə müqayisədə 3,4 faiz çoxdur. Bu dövr ərzində diri çəkidə ət istehsalı 7821 tona, süd istehsalı isə 25278 tona çatmışdır. 2017-ci ilin müvafiq dövrü ilə müqayisədə ət istehsalı 5 faiz, süd istehsalı isə 2 faiz artmışdır.

***

2018-ci ilin yanvar-aprel aylarında informasiya və rabitə xidmətlərinin dəyəri 16 milyon 740 min manat olmuşdur ki, bu da 2017-ci ilin müvafiq dövründəki xidmətlərin dəyəri ilə müqayisədə 2 faiz çoxdur. Bu dövr ərzində mobil rabitə xidmətinin dəyəri 13 milyon 584 min manat təşkil etmiş və bir il öncəyə nisbətdə 1,7 faiz artmışdır.

***

Təsərrüfat subyektlərinin kredit resurslarına çıxış imkanları davamlı olaraq yaxşılaşdırılmış, 2018-ci ilin yanvar-aprel aylarında muxtar respublikanın bank və kredit təşkilatları tərəfindən hüquqi və fiziki şəxslərə 18 milyon 186 min 800 manat məbləğində kreditlər verilmişdir ki, bu da bir il öncəki göstəricidən 2,6 dəfə çoxdur. Verilmiş kreditlərin 1 milyon 836 min 100 manatı və yaxud 10,1 faizi qısamüddətli, 16 milyon 350 min 700 manatı və yaxud 89,9 faizi uzunmüddətli kreditlər olmuşdur.

***

Sahibkarlıq fəaliyyətinin davamlı olaraq dəstəklənməsi, yeni istehsal müəssisələrinin yaradılması nəticəsində muxtar respublikada 376 növdə məhsul istehsal olunur ki, bunun da 126 növü ərzaq, 250 növü isə qeyri-ərzaq məhsullarıdır. Hazırda əhalinin 108-i ərzaq, 236-sı qeyri-ərzaq olmaqla 344 növdə məhsula olan tələbatı tamamilə yerli imkanlar hesabına ödənilir.

***

Muxtar respublikada bank sektorunun normal fəaliyyəti təmin edilmişdir.

1 may 2018-ci il tarixə muxtar respublikanın banklarında açılmış bank hesablarının sayı 69757-yə çatmışdır ki, bunun da 60823-ü və ya 87,2 faizi aktiv hesablardır. 2018-ci ilin yanvar-aprel aylarında açılmış 5131 bank hesabının 5063-ü aktiv hesablar olmuşdur.

Muxtar respublikada quraşdırılmış POS-terminalların sayı 1 may 2018-ci il tarixə 1266-ya çatmışdır.

***

Muxtar respublikada iqtisadiyyatın dinamik inkişafı xarici ticarət əlaqələrinin genişlənməsinə müsbət şərait yaratmış, 2018-ci ilin yanvar-aprel aylarında 108 milyon 711 min 600 ABŞ dolları dəyərində xarici ticarət dövriyyəsi qeydə alınmışdır. İxracın dəyəri 2017-ci ilin müvafiq dövrü ilə müqayisədə artaraq 98 milyon 117 min 200 ABŞ dolları təşkil etmiş, 87 milyon 522 min 800 ABŞ dolları dəyərində müsbət saldo yaranmışdır.

***

2018-ci ilin yanvar-mart aylarında muxtar respublika iqtisadiyyatında bir işçiyə hesablanmış orta aylıq əməkhaqqı 421 manata çatmışdır ki, bu da 2017-ci ilin müvafiq dövrü ilə müqayisədə 1,6 faiz çoxdur.

***

1 aprel 2018-ci il tarixə muxtar respublika əhalisinin sayı bir il öncəyə nisbətdə 3630 nəfər artaraq 453 min 461 nəfər olmuşdur.

## Makroiqtisadi göstəricilər

| Müqayisə predmeti | 2018-ci ilin yanvar-aprel ayları, faktiki | 2018-ci ilin yanvar-aprel ayları 2017-ci ilin yanvar-aprel aylarına nisbətən, faizlə |
|---|---|---|
| Ümumi daxili məhsul, min manat | 711 398,7 | 101,2* |
| Hər bir nəfərə düşən ümumi daxili məhsul, manat | 1 569,4 | 102,7 |
| Sənaye məhsulu, min manat | 322 695,0 | 101,3* |
| Əsas kapitala yönəldilən vəsaitlər, min manat | 286 580,0 | 102,5 |
| Kənd təsərrüfatı məhsulu, min manat | 38 757,9 | 103,4* |
| Nəqliyyat sektorunda yük daşınması, min ton | 4 640,7 | 101,5 |
| İnformasiya və rabitə xidmətləri, min manat | 16 740,0 | 102,0 |
| o cümlədən mobil rabitə, min manat | 13 584,0 | 101,7 |
| Pərakəndə əmtəə dövriyyəsi, min manat | 418 662,3 | 100,5* |
| Əhaliyə göstərilən ödənişli xidmətlər, min manat | 59 697,7 | 100,4* |
| Xarici ticarət dövriyyəsi, min ABŞ dolları | 108 711,6 | 105,9 |
| o cümlədən ixrac | 98 117,2 | 100,2 |
| idxal | 10 594,4 | 2,2 dəfə |
| Bir işçiyə hesablanmış orta aylıq əməkhaqqı, manat | 420,4** | 101,6 |

*) müqayisəli qiymətlər üzrə
**) 2018-ci ilin yanvar-mart ayları göstəricisi